### Mütəxəssis tribunası

# Torpaqdan səmərəli istifadə edək

*Müasir dövrdə münbit torpaqların həcminin azalmasına səbəb olan amillərdən biri də antropogen (insan) təsirlərdir. Antropogen təsir dedikdə torpaqların aqrotexniki becərilməsi, meliorasiya, əkin dövriyyəsi, suvarılması, gübrələrin verilməsi və sair başa düşülür.*

*Torpaqlar uzun müddət intensiv istifadə olunduqda deqradasiyaya uğrayır - torpağın tərkibi, xassələri pisləşir və münbitliyi azalır. Torpaqdakı mikroorqanizmlərin miqdarının və fəaliyyətinin azalması nəticə etibarilə üzvi maddələrin bitkilərin mənimsəyə biləcəyi mineral formalara çevrilmə prosesini də dayandırır.*

Ölkəmizdə bu problem ilk dəfə böyük alim akademik Həsən Əliyev tərəfindən ötən əsrin 70-80-ci illərində qaldırılıb və həyəcan təbili çalınıb. Sonrakı illərdə bu sahədə çalışan alimlər və mütəxəssislər də antropogen təsirlərin ciddi ekoloji problem yaratdığını təsdiqləyiblər. Sübut olunub ki, ölkəmizin torpaq ehtiyatının 80 faizi bu və ya digər dərəcədə deqradasiyaya məruz qalıb.

Alimlər müəyyənləşdiriblər ki, torpaqda bitki üçün lazım olan qida maddələrinin bir hissəsi məhsul vasitəsilə götürülür. Bir sahədə eyni bitki uzun müddət əkildikdə, həmin sahənin münbitliyi tamamilə azalır. Bundan başqa mineral və üzvi gübrələrdən kifayət qədər və düzgün istifadə edilməməsi, əkinlərin növbəli aparılmaması, torpaqların həddindən çox istismar olunması, meliorasiya və suvarma işlərində buraxılan nöqsanlar və digər hallar torpağın münbitliyinin azalmasına və məhsuldarlığın kəskin şəkildə aşağı düşməsinə səbəb olan əsas amillərdəndir.



Rəsmi məlumatlara əsasən, ölkəmizdə kənd təsərrüfatı üçün yararlı torpaq sahəsi 4,768 milyon hektar, əkin yeri 1,843 milyon hektardır.

Yararlı torpaqların sahəsinin azalacağı ehtimalından yeganə çıxış yolu kənd təsərrüfatı sahəsi üzrə çalışan sahibkarlara torpaqların münbitliyinin artırılması vasitəsilə kiçik sahədən daha çox məhsul əldə etmək qabiliyyətinin aşılanmasıdır. Əks təqdirdə onsuz da az olan torpaqların bir hissəsi də torpaqdan istifadə edən sahibkarların yanlış yanaşması nəticəsində yararsız vəziyyətə düşəcək.

Torpaqdan səmərəli istifadə edilmənin bir yolu var ki, o da dünyanın kənd təsərrüfatı sahəsində inkişaf etmiş ölkələrində olduğu kimi, aqrar sahədə qabaqcıl təcrübənin tətbiqidir.

Əgər torpağın münbitliyinin azalmasının qarşısının alınması üçün kompleks tədbirlər görülərsə aqrar sahədə məhsul istehsalını 2-3 dəfə artırmaq olar.

**Elmdar ŞƏRİFOV,**
**rayon kənd təsərrüfatı idarəsinin bitkiçilik sektorunun müdiri.**

# Epizootik profilaktika işlərinə başlanılıb

*Ölkə ərazisində heyvanlar arasında xüsusi təhlükəli xəstəliklərə qarşı aparılan profilaktik tədbirlərin səmərəliliyini və effektivliyini təmin etmək məqsədilə Kənd Təsərrüfatı Nazirliyi tərəfindən təsdiq edilmiş “Epizootik tədbirlər planı”-na uyğun olaraq, 2018-ci ildə müalicə-profilaktik və epizootik tədbirlərin aparılmasına start verilib.*



Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Nəzarəti Xidmətinin və Epizootiya və Zoonoz xəstəliklər Əleyhinə Respublika Ekspedisiyasının baytarlıq mütəxəssisləri bu məqsədlə rayonlara ezam olunublar.

Hər il olduğu kimi, cari ildə də dövlət vəsaiti hesabına alınmış biopreparatlar, dezinfeksiya və müalicəvi dərman preparatları rayon baytarlıq idarələrinin əməkdaşları tərəfindən "Epizootiya əleyhinə profilaktika, diaqnostika tədbirlər planı"-na uyğun olaraq əhalinin mal-qarasına ödənişsiz əsaslarla pulsuz tətbiq edilir.

Dövlət Baytarlıq Nəzarəti Xidməti əhalinin və təsərrüfat sahiblərinin nəzərinə çatdırır ki, heyvanlarda özbaşına müalicə, peyvəndləmə və digər tədbirlər aparılmamalı, heyvanlar baytarlıq-sanitariya tələblərinə cavab verən şəraitdə saxlanılmalıdır. Həmçinin tövsiyə olunur ki, heyvanların müalicə-profilaktik və epizootik tədbirlərdən kənar qalmaması üçün sahə baytarlıq məntəqələri və baytarlıq idarəsinə müraciət etsinlər, bütün tədbirlər baytar həkiminin iştirakı və nəzarəti altında həyata keçirilsin.

Hazırda xüsusi təhlükəli xəstəliklərə görə respublikada və rayonumuzda epizootik vəziyyət sabitdir və bu sabitliyi qoruyub saxlamaq üçün Dövlət Baytarlıq Nəzarəti Xidməti lazımi təşkilati tədbirləri davam etdirir.

**Bəhman ABDURAHMANOV,**
**rayon baytarlıq idarəsinin rəisi.**

### Respublikamızda

Qeyri-neft sektorunda aqrar sahənin çəkisinin digər sahələrdən çox olması məlum faktdır. Belə ki, əhatə etdiyi coğrafiya və məşğul əhalinin çox hissəsinin bu sahə ilə bağlılığı aqrar sektorun önəmini artırır. Kənd təsərrüfatının inkişafı ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün də çox vacibdir. Digər tərəfdən, bu sahənin inkişafı ölkənin qeyri-neft ixracının artmasına təkan verir.

Dövlət Statistika Komitəsinin 2017-ci ilin yanvar-noyabr ayları üzrə açıqladığı rəqəmlərə görə, kənd təsərrüfatında ümumi məhsulun dəyəri faktiki qiymətlərlə 6 milyard 200,6 milyon manat təşkil etmişdir ki, onun da 3 milyard 258,6 milyon manatı heyvandarlıq, 2 milyard 942 milyon manatı bitkiçilik məhsullarının payına düşür. 2016-cı ilin eyni dövrü ilə müqayisədə ötən il kənd təsərrüfatında ümumi məhsul istehsalı 4,2, o cümlədən heyvandarlıq məhsullarının istehsalı 2,8, bitkiçilik məhsullarının istehsalı 5,9 faiz artmışdır.

# Fındıqçılığın inkişafı diqqət mərkəzindədir

***Fındıqçılığın inkişaf etdirilməsi üçün əlverişli torpaq-iqlim şəraitinə malik Qəbələ rayonunda mərhələli şəkildə yeni fındıq bağlarının salınması işləri davam etdirilir.***

Yeni salınacaq bağlar üçün ərazilərin seçilməsi, ting ehtiyatlarının tədarükü, əkin işlərinin optimal müddətdə və keyfiyyətlə yerinə yetirilməsi üçün işçi qrup yaradılıb, mövcud fındıq bağlarından tədarük ediləcək ting ehtiyatlarının həcmi müəyyənləşdirilib.



Həyata keçirilmiş tədbirlər nəticəsində ötən il 517.44 hektara yaxın sahədə fındıq bağları salınaraq, yeni fındıq bağlarının ümumi sahəsi 1217.44 hektara çatdırılıb.

Hazırda 782.56 hektara yaxın sahədə bağların salınması üçün işlər davam etdirilir. Bu məqsədlə müvafiq ərazilər müəyyən edilib, 540 min ədəd fındıq tingi və pöhrələri hazırlanıb.

**Famil XİTİLOV,**
**rayon kənd təsərrüfatı idarəsinin bitkiçilik sektorunun baş məsləhətçisi.**

# 2018-ci ili yanvar ayı ərzində vergi orqanına təqdim edilməli olan bəyannamələr və ödənilməli vergilər barədə YADDAŞ

**2017-ci ilin dekabr ayına görə vergi ödəyiciləri tərəfindən tədiyəçisi olduqları:**

- Əlavə dəyər vergisi bəyannaməsi,
- Aksiz bəyannaməsi,
- Yol vergisi bəyannaməsi,
- Mədən vergisi bəyannaməsi,
- Pul vəsaitlərinin nağd çıxarılmasına görə Sadələşdirilmiş verginin bəyannaməsi,
- Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan vergi bəyannaməsi

2018-ci ilin **yanvar ayının 22-dən** gec olmayaraq vergi orqanına təqdim edilməli və təqdim edilmiş bəyannamələr üzrə hesablanmış vergilər həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödənilməlidir.

- **Daşınmaz əmlakın təqdim edilməsi üzrə Sadələşdirilmiş verginin bəyannaməsi**

2018-ci ilin **yanvar ayının 22-dən** gec olmayaraq vergi orqanına təqdim edilməlidir (vergi əməliyyat apardığı gün - 1 bank günü ərzində ödənilir).

**2017-ci ilin 4-cü rübünə görə vergi ödəyiciləri tərəfindən tədiyəçisi olduqları:**

- Sadələşdirilmiş verginin bəyannaməsi,
- Ödəmə mənbəyində tutulan vergi bəyannaməsi

2018-ci ilin **yanvar ayının 22-dən** gec olmayaraq vergi orqanına təqdim edilməli və rüb üzrə hesablanmış vergilər həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödənilməlidir.

- **Xüsusi notariusların gəlir vergisi bəyannaməsi**

2018-ci ilin **yanvar ayının 22-dən** gec olmayaraq vergi orqanına təqdim edilməli və 2017-ci ilin **dekabr ayı üzrə hesablanmış gəlir vergisi** həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödənilməlidirr.

- **Dövlər rüsumu haqqında hesabat**

2018-ci ilin **yanvar ayının 22-dək** vergi orqanına təqdim edilməli, notariat hərəkətlərinə görə dövlət rüsumu notarius tərəfindən qəbul edilərək **2 bank günü,** xarici ölkələrdəki diplomatik nümayəndəliklərdə aparılan konsul əməliyyatları üçün alınan dövlət rüsumu **1 ay,** digər dövlət rüsumları isə tutulduqdan sonra **1 bank günü** ərzində dövlət büdcəsinə köçürülməlidir.

**Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi bəyannaməsi**

- **ƏDV və Sadələşdirilmiş vergi ödəyiciləri tərəfindən 2018-ci ilin yanvar ayının 31-dən** gec olmayaraq vergi orqanına təqdim edilməli və **2017-ci ilin dekabr ayı** üzrə hesablanmış vergi **2018-ci ilin yanvar ayının 22-dən** gec olmayaraq tam həcmdə dövlət büdcəsinə ödənilməlidir.
- **Digər vergi ödəyiciləri tərəfindən** (ƏDV və Sadələşdirilmiş vergi ödəyiciləri istisna olmaqla) **2018-ci ilin yanvar ayının 22-dən** gec olmayaraq vergi orqanına təqdim edilməli və **2017-ci ilin dekabr ayı üzrə hesablanmış vergi** həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödənilməlidir

**Gəlir və mənfəət vergisi ödəyiciləri tərəfindən**

2017-ci ilin **4-cü rübü üzrə hesablanmış** cari ödəmələr 2018-ci ilin **yanvar ayının 15-dən** gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.

* * *

Bəyannamələr müəyyən edilən müddətdə təqdim edilmədikdə **40 manat** məbləğində **maliyyə sanksiyası** tətbiq edilir (VM, 57), vergilər vaxtında ödənilmədikdə isə bir ildən çox olmamaqla ötmüş hər bir gün üçün **0,1 faizi** məbləğində **faiz** tutulur (VM, 59).

**Hörmətli vergi ödəyiciləri!** Bəyannamələrinizi və bəyannamələr üzrə hesablanmış vergiləri Vergilər Nazirliyinin İnternet Vergi İdarəsi portalı vasitəsilə elektron qaydada təqdim edə və ödəyə bilərsiniz. Bununla vaxtınıza qənaət etmiş olarsınız.